UNITED NATIONS
HUMAN RIGHTS COUNCIL

MEDIA ADVISORY

# Universal Dövri İcmal çərçivəsində Azərbaycanda insan hüquqlarının vəziyyətinə baxılacaq

**CENEVRƏ (9 noyabr 2023-cü il)** – 14 noyabr 2023-cü il tarixində BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal (UDİ) üzrə İşçi Qrupu Cenevrə şəhərində baş tutacaq iclas zamanı Azərbaycanda insan hüquqlarının vəziyyətini dördüncü dəfə nəzərdən keçirəcək. İclas **internet üzərindən canlı yayımlanacaq.**

Azərbaycan UDİ üzrə İşçi Qrupunun 6-17 noyabr 2023-cü il tarixlərində keçiriləcək 44-cü sessiyası zamanı baxışdan keçiriləcək 14 dövlətdən biridir. Azərbaycan üzrə birinci, ikinci və üçüncü UDİ baxışları müvafiq olaraq 2009-cu ilin fevral, 2013-cü ilin aprel və 2018-ci ilin may aylarında keçirilib.

UDİ üzrə İşçi Qrupu İnsan Hüquqları Şurasının 47 üzv dövlətindən ibarətdir. Bununla belə, BMT-yə üzv olan 193 dövlətin hər biri ölkə baxışlarında iştirak edə bilər.

UDİ baxışı aşağıdakı sənədlərin əsasında aparılır: 1) milli hesabat – nəzərdən keçirilən dövlət tərəfindən təqdim olunan məlumatlar; 2) Xüsusi prosedurlar üzrə mandat daşıyıcılarının (insan hüquqları üzrə müstəqil ekspertlər və qruplar), insan hüquqları üzrə müqavilə qurumlarının və digər BMT qurumlarının hesabatlarında təqdim olunan məlumatlar; 3) milli insan hüquqları təsisatları, regional təşkilatlar və vətəndaş cəmiyyəti qrupları da daxil olmaqla, digər maraqlı tərəflərin təqdim etdiyi məlumatlar.

14 noyabrda Azərbaycan üzrə keçiriləcək baxış üçün əsas kimi çıxış edən üç hesabatla **burada** tanış ola bilərsiniz.

**Məkan**: Cenevrə, Millətlər Sarayı, 20-ci zal

**Vaxt və tarix**: 14 noyabr 2023-cü il, çərşənbə axşamı, saat 9:00–12:30 (Cenevrə vaxtı ilə, GMT +1 saat)

UDİ mexanizmi BMT-yə üzv olan 193 üzv dövlətdə insan hüquqlarının vəziyyətinin dövri təhlilidir. UDİ mexanizminin 2008-ci ilin aprelində keçirilmiş birinci iclasından indiyədək BMT-yə üzv 193 üzv dövlətin hər biri üç dəfə baxışdan keçib. Dördüncü sikl zamanı dövlətlərdən əvvəlki baxışlar zamanı

onlara verilmiş və yerinə yetirməyi öhdələrinə götürdükləri tövsiyələrin icrası ilə bağlı görülən tədbirləri təfsilatlı şəkildə təsvir etmələri, eləcə də ölkələrində insan hüquqları sahəsində baş vermiş son prosesləri diqqətə çatdırmaları gözlənilir.

Azərbaycanın nümayəndə heyətinə Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini cənab Samir Şərifov rəhbərlik edəcək.

Azərbaycan üzrə baxışla bağlı məruzəçi qismində aşağıdakı üç ölkənin ("troyka") nümayəndələri çıxış edir: Boliviya (Çoxmillətli Dövləti), Malavi və Maldivlər.

Sessiyanın **internet üzərindən canlı yayım** keçidi: https://media.un.org/en/asset/k1s/k1s08wn6uk

Azərbaycan üzrə baxış zamanı çıxış edəcək şəxslərin siyahısı və səsləndiriləcək bütün bəyanatlar **UPR Extranet** keçidində yerləşdiriləcək.

UDİ üzrə İşçi Qrupun 17 noyabr 2023-cü il tarixində, cümə günü saat 16:00-18:00 arasında Azərbaycanla bağlı **tövsiyələri qəbul etməsi planlaşdırılır**. Baxış keçirilən dövlət müvafiq baxış zamanı ona verilən tövsiyələrlə bağlı mövqeyini bildirə bilər.

// SON //

*Daha ətraflı məlumat üçün və media sorğuları ilə bağlı **simp@un.org** elektron poçt ünvanı vasitəsilə İnsan Hüquqları Şurasının Media Müşaviri Paskal Sim, **david.diazmartin@un.org** elektron poçt ünvanı vasitəsilə İnsan Hüquqları Şurasının İctimai İnformasıya Müşaviri David Díaz Martín, yaxud **verena.bongartz@un.org** elektron poçt ünvanı vasitəsilə İnsan Hüquqları Şurasının İctimai İnformasıya Müşaviri Verena Bonqartz ilə əlaqə saxlaya bilərsiniz.*

*Universal Dövri İcmal barədə daha ətraflı məlumat almaq üçün aşağıdakı səhifəni ziyarət edə biləriniz:* **www.ohchr.org/en/hr-bodies/upr/upr-main**

**BMT-nin İnsan Hüquqları Şurasını sosial mediada izləmək üçün:**

**Facebook** | **Twitter** | **YouTube** | **Instagram**